# Nigar Rəfibəyli
# incə ruhlu sənətkar

Onun xeyirxahlığın və humanizmin nurlu ideyaları ilə aşılanmış əsərləri bir çox xalqların nümayəndələri tərəfindən olduqca böyük maraqla qarşılanır. Doğma diyara hədsiz məhəbbət, həyatın bədii qavranışının qeyri-adiliyi, öz xalqının əsrlər boyu təşəkkül tapmış adət-ənənələrinə qayğıkeş münasibət şairin əsərlərinə ümumbəşəri əhəmiyyətlə yanaşı, dərin milli klorit verir.

Bəlkə də elə bu məziyyətlərinə görədir ki, Nigar Rəfibəylinin yubileyi yerlərdə geniş ictimaiyyətin iştirakı ilə böyük ehtiram və məhəbbətlə qeyd edilir. Bu günlərdə Azərbaycan Dövlət Filormoniyasında gerçəkləşdirilən gecə bu baxımdan xüsusi diqqət çəkir.

Mərasimdə Baş nazirin müavini Elçin Əfəndiyev, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, digər rəsmilər, millət vəkilləri, mədəniyyət, ədəbiyyat xadimləri, ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə filarmoniyanın foyesində şairin həyat və yaradıcılığını əhatə edən "Şanlı nəsillərin yadigarıyam" adlı kitab sərgisi ilə tanış olmuşlar.

Yubiley gecəsini mədəniyyət və turizm naziri Əbülfəs Qarayev açaraq Nigar Rəfibəyli poeziyası, onun ədəbiyyatımızdakı yeri barədə danışmışdır: "Azərbaycan mədəniyyəti tarixində qədim zamanlardan bu günümüzə qədər çoxlu qadın sənətkarlar olmuş, onlar incəsənətin ən müxtəlif sahələrində - musiqidə, rəssamlıqda, teatr və kinoda bir-birindən gözəl örnəklər yaratmışlar. Belə gözəl sənətkarlardan biri də Xalq şairi Nigar Rəfibəylidir. O, XX əsr Azərbaycan poeziyasında özünəməxsus, ustad qələm sahibidir. Azərbaycan oxucusu bu imzaya həm onun sağlığında, həm də sonrakı illərdə rəğbət bəsləmişdir".

Qeyd olunmuşdur ki, Nigar xanım Azərbaycanın istiqlal uğrunda mübarizə aparan və buna görə sovet hökuməti tərəfindən hədsiz iztirablara düçar edilən böyük bir nəslinin nümayəndəsidir: "Ata-babalarının şöhrətli olması sonralar Nigar xanımın həyatında bir çox çətinliklər yaratmışdır. Bu sınaq illərində ona ömür-gün yoldaşı, böyük şair Rəsul Rza arxa, dayaq olmuşdur. Olduqca ziddiyyətli, ideologiyanın təzyiqi altında sıxılan bir sistemdə yaşamasına baxmayaraq, Nigar xanım gənclik illərindən şair adını təsdiqləyə bilmiş, Azərbaycan və dünya ədəbiyyatının zəngin ənənələrini mənimsəyərək qadın qəlbi kimi zərif, unudulmaz əsərlər yaratmışdır. Nigar Rəfibəylinin anadan olmasından keçən yüz il ərzində iki dünya müharibəsi olmuş, inqilablar baş vermiş, Azərbaycan iki dəfə öz müstəqilliyinə nail olmuşdur. Dövrün söz ustadları olan Cəfər Cabbarlı, Hüseyn Cavid, Səməd Vurğun, Süleyman Rüstəm kimi sənətkarlarla yanaşı, Nigar Rəfibəylinin də yaradıcılığı ötən yüz ilin canlı salnaməsidir".

**Nigar Rəfibəyli - 100**



Xalq şairinin ədəbi irsinə dövlət tərəfindən daim diqqət göstərildiyini vurğulayan nazir ümummilli lider Heydər Əliyevin vaxtilə Gəncədə Nigar Rəfibəylinin abidəsinin açılışında Rəfibəylilər nəslinin tariximizdə yeri, Nigar xanım və Rəsul Rzanın ailəsi haqqında dediyi xoş sözləri yada salmışdır: "Ulu öndərimiz bu ailənin Azərbaycana iki Xalq şairi, bir Xalq yazıçısı bəxş etdiyini dilə gətirmiş, beləliklə, Nigar Rəfibəylinin də, Rəsul Rzanın da, Anarın da xalqımızın mədəni dəyəri olduğunu vurğulamışdır".

Qeyd olunmuşdur ki, Nigar Rəfibəyli bənzərsiz şair olmaqla yanaşı, həm də dünya ədəbiyyatının dəyərli örnəklərinin dilimizə tərcüməçisidir. O, böyük söz dühası Məhsəti Gəncəvinin rübailərini çağdaş türkcəmizə çox yüksək səviyyədə çevirmişdir. Mahnı yaradıcılığında da Nigar Rəfibəyli adının xüsusi yeri var. Onun sözlərinə yazılmış musiqilər də şeirləri kimi xalqın yaddaşına hopmuş, mənəvi zövqünü zənginləşdirmişdir. Bu gün də bu mahnılar dillər əzbəridir, müğənnilər tərəfindən sevilərək ifa olunur.

Nazir ölkə başçısının müvafiq sərəncamına əsasən Xalq şairinin yubileyi münasibətilə keçirilən silsilə tədbirlər, xatirə gecələri barədə məlumat vermişdir. Bildirilmişdir ki, Xalq şairinin ədəbi nümunələri poetik təravətini heç vaxt itirməmiş və dəfələrlə çap olunmuşdur: "Ölkə Prezidentinin sərəncamına əsasən şairin əsərləri latın qrafikası ilə də nəşr olunaraq respublika kitabxanalarına paylanıb. Bundan başqa, yubiley çərçivəsində Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Nigar Rəfibəylinin yaradıcılıq nümunələrinin əks olunduğu iki kitab da çapdan çıxıb".

Şairənin oğlu, Xalq yazıçısı Anar çıxış edərək Nigar Rəfibəyli yaradıcılığına, Azərbaycan ədəbiyyatına və onun təmsilçilərinə olan diqqət və qayğıya görə ölkə başçısına təşəkkürünü bildirmişdir: "Prezidentin müvafiq sərəncamı ilə Nigar Rəfibəylinin yubileyi ölkəmizin hüdudlarından kənarda da yüksək səviyyədə qeyd edilir. Buna görə də ailəmiz adından İlham Əliyev cənablarına xüsusi təşəkkürümü bildirirəm. Nigar xanımın şeirləri və onun haqqında materialların toplandığı iki nəfis tərtibatlı kitabın nəşrinə görə Mədəniyyət və Turizm Nazirliyinə ayrıca minnətdarlığımı bildirirəm".

Çıxışlardan sonra Nigar Rəfibəyli poeziyası, yaşantıları və həyatının dolğun məqamlarının orijinal səhnə forması təqdim olunmuşdur. Zalda əyləşən hər kəs mənalı şair ömrü, əbədi poeziya sevgisi və iki böyük şairin tükənməz məhəbbətinin əbədi ömrünə bir neçə dəqiqə içərisində səyahət etmişlər. Rəsul Rza və Nigar Rəfibəyli obrazlarını Xalq artisti Fəxrəddin Manafov və Əməkdar artist Mehriban Zəkinin təqdimatında heyranlıqla izləmişlər. Tanışlıqlarından ömürlərinin sonunadək keçən acılı-şirinli illər, təlatümlü dönəmlər, intizarlı ayrılıqlar, şirin vüsallar, əbədi, əcəl ayrılıqları şairənin şeir dünyasının inciləri ilə qəribə bir ecaz dolu səhnə yaratmışdır. Poetik tamaşanı şairənin şeirlərinə yazılan musiqi nümunələri daha da rəngarəng, möhtəşəm etmişdir.

**Xalq artistləri Fidan və Xuraman Qasımova bacılarının şövqlə ifa etdikləri "Bakı", "Üzüyünün qaşı firuzədəndir" mahnıları, əməkdar artistlər Aygün Bəylər, Almaz Orucova, Güllü Muradovanın məharətlə dilləndirdikləri məşhur mahnılar, şairənin nəğməyə dönüb sevən könülləri ovsunlayan "Ala gözlüm" parçası xüsusi alqış, səs-səda doğurmuşdur. Səhnədən ilğım kimi yayılan şeiriyyətin xoş, kövrək, kədər və sevincli hərarəti hər kəsi təsirləndirmiş, ayrı bir aləmə, ruh dünyasına qovuşdurmuşdur...**

**Ş.ƏKBƏROVA**